MİLLİ VƏ DÜNYA ORKESTR MODELLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

ƏHMƏDOVA Sevinc Anar qızı
AMK-nın magistr II kurs tələbəsi
E-mail: sevincahmadova525@gmail.com
ORCID: 0009-0004-0734-1788

Elmi rəhbər: ***Leyla Quliyeva***
Sənətşünaslıq üzrə fəlsəfə doktoru,
AMK-nın professoru

DOI: 10.62440/AMK2026-2.s.63-77

Xülasə: *Məqalədə Şərq və Qərb orkestr modellərinin müqayisəli təhlili əsasında Azərbaycan, Türkiyə, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tatarıstan, Qazaxıstan xalq çalğı alətləri orkestrləri, eləcə də Rusiya, Vyana və Bilkent Simfonik Orkestrlərinin xüsusiyyətləri araşdırılmışdır. Tədqiqat nəticəsində orkestr modelləri tamamilə milli model, sintez modeli, Avropa simfonik modeli və müasir akademik simfonik model kimi təsnif edilmişdir. Müəyyən olunmuşdur ki, tamamilə milli orkestr modelləri milli musiqi ənənələrinin qorunmasına xidmət etsə də, repertuar baxımından məhdud imkanlara malikdir. Sintez modeli isə milli və Avropa ifaçılıq prinsiplərinin uzlaşdırılması nəticəsində daha geniş repertuar imkanları yaradır. Avropa simfonik modelində klassik musiqi ənənələri üstünlük təşkil edir və xalq musiqisi ikinci planda qalır. Bilkent Simfonik Orkestri isə akademik əsasda formalaşması, beynəlxalq ifaçı tərkibi və türk musiqisinin təbliğinə xüsusi diqqət yetirməsi ilə seçilir. Araşdırma göstərir ki, not sisteminə keçid Şərq orkestrlərinin peşəkar inkişafını sürətləndirən əsas amillərdən biri olmuşdur. Məqalədə milli ənənələrin qorunması ilə dünya təcrübəsinin birləşdirilməsini təmin edən sintez modelinin daha optimal inkişaf istiqaməti olduğu nəticəsi əldə edilmişdir.*

Açar sözlər: *xalq çalğı alətləri orkestri, milli orkestr modelleri, türkdilli dövlətlər, xarici ölkələrin orkestrləri*

СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ НАЦИОНАЛЬНЫХ И МИРОВЫХ ОРКЕСТРОВЫХ МОДЕЛЕЙ

АХМЕДОВА Севиндж Анар
Магистрантка II курса Азербайджанской
Национальной Консерватории

Аннотация: *В статье рассматриваются особенности оркестров народных инструментов Азербайджана, Турции, Узбекистана, Туркменистана, Кыргызстана, Татарстана, Казахстана, а также Российского, Венского и Бил ькентского симфонических оркестров на основе сравнительного анализа восточных и западных оркестровых моделей. В результате исследования оркестровые модели были классифицированы как полностью национальная, синтетическая, европейская симфоническая и современная академическая симфоническая. Национальная модель хоть и служит сохранению национальных музыкальных традиций, она имеет ограниченные возможности в плане репертуара. Синтетическая модель, с другой стороны, создает более широкие репертуарные возможности в результате согласования национальных и европейских исполнительских принципов. В европейской симфонической модели преобладают классические музыкальные традиции, а народная музыка остается на заднем плане. Билькентский симфонический оркестр отличается своим академическим формированием, международным составом исполнителей и особым вниманием к популяризации турецкой музыки. Исследование показывает, что переход к нотной системе стал одним из главных факторов, ускоривших профессиональное развитие восточных оркестров. В заключение статьи указывается, что синтезная модель, обеспечивающая сохранение национальных традиций и сочетание мирового опыта, является более оптимальным направлением развития.*

Ключевые слова: *оркестр народных инструментов, национальный модель оркестров, тюркоязычные государства, оркестры зарубежных стран*

COMPARATIVE ANALYSIS OF NATIONAL AND WORLD ORCHESTRA MODELS

AHMADOVA Sevinj Anar
2nd-year Master's student at the Azerbaijan National Conservatory

Abstract: *The article examines the characteristics of the folk instrument orchestras of Azerbaijan, Turkey, Uzbekistan, Turkmenistan, Kyrgyzstan, Tatarstan, Kazakhstan, as well as the Russian, Vienna and Bilkent Symphony Orchestras based on a comparative analysis of Eastern and Western orchestral models. As a result of the study, the orchestral models were classified as a completely national model, a synthesis model, a European symphonic model and a modern academic symphonic model. It was determined that although the completely national model serves to preserve national musical traditions, it has limited possibilities in terms of repertoire. The synthesis model, on the other hand, creates wider repertoire possibilities as a result of the reconciliation of national and European performance principles. Classical musical traditions prevail in the European symphonic model, and folk music remains in the background. The Bilkent Symphony Orchestra is distinguished by its formation on an academic basis, international composition of performers and special attention to the promotion of Turkish music. The study shows that the transition to the notation system was one of the main factors accelerating the professional development of Eastern orchestras. The article concludes that the synthesis model, which ensures the preservation of national traditions and the combination of world experience, is a more optimal development direction.*

Keywords: *orchestra, folk instruments, national, model, Turkic-speaking states, foreign countries' orchestras, comparison*

Rəyçilər:

sənətşünaslıq üzrə fəlsəfə doktoru Leyla Quliyeva;

sənətşünaslıq üzrə fəlsəfə doktoru, AMK-nın professoru Jalə Qulamova

GİRİŞ: Müasir musiqişünaslığın aktual problemlərindən biri milli musiqi ənənələrinin qlobal akademik standartlar müstəvisində qorunması və inkişaf etdirilməsidir. Orkestr ifaçılığı dünya musiqi mədəniyyətinin ən mürəkkəb və çoxşaxəli təzahürlərindən biri kimi tarixi təkamül prosesində müxtəlif xalqların özünəməxsus orkestr modellərini formalaşdırmışdır. Müasir mərhələdə müxtəlif coğrafi və mədəni areallara məxsus orkestr strukturlarının ortaq və fərqli cəhətlərinin sistemli şəkildə araşdırılmasına ciddi ehtiyac duyulur.

Tədqiqatın aktuallığı, xalq çalğı alətləri orkestrlərinin təşkilati prinsiplərinin Avropa simfonik orkestr modelləri ilə qarşılıqlı əlaqəsinin dərindən öyrənilməsi zərurəti ilə şərtlənir. Mövzu ilə bağlı mövcud elmi ədəbiyyatda konkret bir ölkənin və ya regionun orkestr tarixi geniş işıqlandırılsa da, Azərbaycan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tatarıstan və Qazaxıstanın milli orkestr modellərinin Rusiya, Türkiyə və Avropa (Vyana) nümunələri ilə genişmiqyaslı müqayisəli təhlili indiyədək kifayət qədər diqqət mərkəzində olmamışdır. Bu araşdırma məhz geniş coğrafi arealı əhatə etməsi və fərqli ifaçılıq məktəblərini vahid müqayisə platformasında birləşdirməsi ilə əvvəlki tədqiqatlardan fərqlənir. Tədqiqatın nəzəri əhəmiyyəti orkestr modellərinin tipologiyasının müəyyənləşdirilməsindən ibarətdir. Məqalədə müxtəlif xalqların alətşünaslıq ənənələrinin orkestr fakturasına təsiri, temperasiya məsələləri və ansambl prinsipləri nəzərdən keçirilir. Bu yanaşma, milli musiqi alətlərinin akademik statusunun möhkəmlənməsinə və sahənin daha dərindən dərk edilməsinə xidmət edir. Məqalənin hazırlanmasında müqayisəli-tipoloji və tarixi-analitik metodologiyadan istifadə edilmişdir. Problemin həlli üçün müxtəlif regionların orkestr heyətləri, partituraların quruluş xüsusiyyətləri və səs palitrası qarşılıqlı şəkildə təhlil olunmuşdur. Seçilmiş bu yanaşma, milli orkestr modellərinin dünya musiqi sistemindəki yerini obyektiv qiymətləndirməyə imkan verir.

Tədqiqatın tətbiq sahəsi ali və orta ixtisas musiqi təhsili müəssisələrində tədris olunan orkestrləşdirmə, alətşünaslıq, dirijorluq və ansambl fənləri ilə bilavasitə əlaqədar olduğundan xalq çalğı alətləri orkestrlərinin formalaşdırılması, orkestr heyətinin təkmilləşdirilməsi və repertuar siyasətinin müəyyənləşdirilməsi prosesində material qismində istifadə edilə bilər.

Azərbaycan xalq çalğı alətləri orkestri modeli

Azərbaycan musiqi tarixində ən mühüm hadisələrdən biri 1931-ci ildə Üzeyir Hacıbəylinin rəhbərliyi ilə notlu xalq çalğı alətləri orkestrinin yaradılması olmuşdur. Bu addım bütün Şərq aləmində böyük mədəni hadisəyə çevrilmişdir.

Orkestrin tərkibi əsasən tar, kamança, balaban, nağara, qoşanağara, dəf, qaval kimi milli alətlərdən ibarət idi. Üzeyir Hacıbəylinin xalq çalğı alətləri orkestri üçün “Çahargah” və “Şur” fantaziyaları orkestrin repertuarının əsasını qoymuşdur. Fantaziyaların ifası ilə əlaqədar olaraq orkestrdə bəm səslənməni təmin etmək üçün fortepiano aləti partituraya daxil edilmişdir.

1935-ci ildə Üzeyir Hacıbəyli orkestrə rəhbərlik etməyi Səid Rüstəmova həvalə etmişdir. Səid Rüstəmovun rəhbərliyi ilə orkestrin tərkibi genişlənmiş, tar qrupuna bas tarlar, nəfəs alətləri qrupuna üçüncü, dördüncü balabanlar, tütək, zərb alətləri qrupuna isə qoşanağara və dəf alətləri əlavə olunmuşdur. Xarici ölkə bəstəkarlarının əsərləri köçürülərək orkestrin repertuarına daxil edilmiş və beləliklə də xalq çalğı alətləri orkestrinin repertuarı bərqərar olmuşdur. 1937-38-ci illərdə artıq xalq çalğı alətləri orkestri M.İ.Qlinka, P.İ.Çaykovski, M.P.Musorqski, A.Darqomıjski, J.Bize, C.Verdi kimi dünya bəstəkarlarının əsərlərini yüksək səviyyədə ifa edə bilirdi.



Şəkil 1. *Azərbaycan xalq çalğı alətləri orkestri*

Türkdilli dövlətlərin orkestr modelləri

1936-cı ildə Daşkənd Konservatoriyası və Daşkənd Dövlət Filarmoniyası yaradıldıqdan sonra Filarmoniyanın nəzdində Tuxtasin Cəlilov adına xalq çalğı alətləri orkestri təşkil olunmuşdu. 1937-ci ildə N.M.Mironov orkestrin içərisindən iyirmi dörd ən yaxşı ifaçını ayırmaqla onlara not savadına yiyələnərək not mətnini üzdən oxumağı öyrətmiş və notlu xalq çalğı alətləri orkestrinin təməlini qoymuşdur. Özbəkistan orkestrinin tərkibinə müxtəlif növ milli alətlər daxil edilmişdir:

– Simli kamanlı alətlər: qıcak, sato, kobuz, setar
– Simli mizrablı alətlər: dombra, dütar, tənbur, əfqan rübabı, qaşqar rübabı, ud
– Nəfəs alətləri: sıbızqı, balaban, surnay, koşnay, nay, karnay
– Zərb alətləri: doyra, nağara, sindaul, safail, koşuk

Orkestrin tərkibinə milli alətlərlə yanaşı Avropa alətləri daxil edilsə də, sonradan Avropa alətləri orkestrin tərkibindən kənarlaşdırılmışdır. Özbək xalq çalğı alətləri orkestrinin ən mühüm xüsusiyyəti tərkibinə Avropa alətlərinin daxil edilməməsidir. Bu qərar özbək musiqiçilərinin Avropa alətlərinin milli musiqinin səslənmə ahənginə mənfi təsir etdiyini hiss etmələri nəticəsində qəbul edilmişdir.

1940-cı ildə Türkmənistan Dövlət Filarmoniyasının nəzdində Əməkdar incəsənət xadimi Purli Sarıyevin rəhbərliyi ilə ilk xalq çalğı alətləri orkestri yaradılmışdır. Orkestrin dirijoru və bəstəkarı Aşir Quliyev təyin olunmuşdur. Orkestrin tərkibi dütar qrupu, qıcak qrupu, tüyduk və dilli tüydükdən ibarət idi. Türkmənistan orkestrinin fərqli cəhəti ondan ibarətdir ki, türkmən alətşünaslığında zərb alətləri məhdud olduğu üçün onlar əsasən qazax xalqına məxsus olan daulpaz alətindən və digər xalqların zərb alətlərindən istifadə etmişlər. Lakin, türkmən milli musiqi alətlərinin imkanları məhdud olduğu üçün orkestr Avropa bəstəkarlarının əsərlərini lazımi səviyyədə ifa edə bilmirdi. Bu səbəbdən də orkestrin tərkibinə violonçel, alt, kontrabas, fleyta, qoboy, klarnet alətləri daxil edilmişdir.

1936-cı ildə P.F.Şubinin təşəbbüsü və rəhbərliyi ilə Qırğızıstanda ilk xalq çalğı alətləri orkestri yaradılmışdır. F.Şubin ifaçıların təhsilini artırmaqla orkestri not sisteminə keçirmiş, komuz və kıyak alətlərinin pikkolo, prima, alt, tenor, bas, kontrabas növlərini orkestrə daxil etməklə milli koloriti və tembr rəngarəngliyini zənginləşdirmişdir. Qırğız orkestrinin inkişafında V.Vlasov və V.Fere kimi rus bəstəkarları mühüm rol oynamışdır. Onlar "Altın qız" tamaşasının musiqisini yazmış və bu əsər professional musiqi sənətinin əsasını qoymuşdur. Əsərdə milli musiqi alətləri Avropa alətləri ilə peşəkarlıqla uzlaşdırılmışdır.

1933-cü ildə Kazanda Radio Komitəsinin nəzdində ilk xalq çalğı alətləri orkestri yaradılmışdır. Orkestrin tərkibində milli alətlərdən kuray, kubız, digər xalqlardan götürülmüş qarmon, violin, qusli, mandolina, dombra var idi. Tatar orkestrinin inkişafında N.Jiqanov, M.Müzəffərov, A.Klyuçaryov, F.Yarullin kimi bəstəkarların xidməti böyük olmuşdur. Onlar orkestr üçün orijinal əsərlər bəstələmiş, eyni zamanda dünya bəstəkarlarının klassik əsərlərinin nümunələrini tatar xalq çalğı alətləri orkestri üçün işləmişlər.

1934-cü ildə qazax bəstəkarı və dirijoru Əhməd Jubanov, bəstəkar Yevgeniy Brusilovski və musiqiçi ustalar Romanenko qardaşları ilə birgə müxtəlif ölçülü, müxtəlif registrə malik dombra və kobız alətlərinin prima, sekunda, bas, kontrabas növlərini yaratmış və bu alətlərdən ibarət xalq çalğı alətləri orkestri təşkil etmişdir. Qazax xalq çalğı alətləri orkestrinin ən mühüm nailiyyətlərindən biri 1936-cı ildə Moskvada Qazaxıstan Mədəniyyəti və İncəsənəti dekadasında çıxışı olmuşdur. "Böyük Teatr"ın səhnəsində qazax xalq mahnıları ilk dəfə xalq

çalğı alətləri orkestrinin ifasında səsləndirilmişdir ki, bu da Qazaxıstan musiqi mədəniyyətinin inkişafına təkan vermişdir. B.Qizatov qeyd edir: “*1949-cu ildə Moskvada keçirilən Qazaxıstan Mədəniyyəti və İncəsənəti Ongünlüyündə xalq çalğı alətləri orkestrinin çıxışı milli musiqimizin böyük nailiyyəti idi. Birinci dəfə Moskvada notsuz ifa edən orkestrin bu dəfə çex bəstəkarı Dvorjakın bir saylı “Slavyan rəqsi”ni, Qlinkanın “Vals-fantaziya”sını, Motsartın “Rondo”sunu ifa etməsi musiqi ictimaiyyətinin diqqətini cəlb edir. Orkestr bir çox xalq mahnıları və küylər də ifa edirdi: “Asem konır” (Gözəl qonur), “Toy bastar” (Bayram), “Jenis” (Qələbə), “Kişkentay” (Balaca), “Zaureş” (Qız adı), “Axay semey” (Semipalatinsk), “Zaman ay” (Ah zaman), “1916-cı jıl” (1916-cı il), “Arman” (Arzu), “Elimay” (Vətən). Bu əsərlərin hər biri orkestrin ifasında yüksək səviyyədə səslənmişdir*” (Гизатов, 1957: 45).



Şəkil 2. *Qazaxıstan xalq çalğı alətləri orkestri*

1940-cı ildə Müzəffər Sarıözən tərəfindən Türkiyədə xalq musiqisini ifa edən xalq çalğı alətləri orkestri təşkil olunmuşdur. Orkestrin tərkibinə bağlama, kabak kəmanə, tar, kaval, bendir, dəf alətləri daxil edilir. Tar aləti orkestrin melodik quruluşunda, xüsusilə muğam və ciddi ifa tələb edən havaların səsləndirilməsində önəmli rol oynayır. Tarın səs tembri digər xalq çalğı alətləri ilə birlikdə orkestrin tembrini zənginləşdirir, milli koloriti vurğulayır və ənənəvi Türk xalq

musiqisinin orijinal ifasını təmin edir. Bu orkestrdə tar təkcə müşayiətçi deyil, həm də bəzən solo ifa imkanları ilə seçilən əsas alətlərdən biri kimi çıxış edir.

Xarici ölkələrin orkestr modelləri

1925-ci ildə Sankt-Peterburq Dövlət Radio Komitəsi nəzdində rus xalq çalğı alətlərindən ibarət orkestr yaradıldı. Professor İ.V.İvanova yazır: "*Radionun nəzdində yaradılan xalq çalğı alətləri orkestrinin tərkibinin böyük hissəsini Böyük Rusiya Simfonik orkestrinin ifaçıları təşkil edirdi. Orkestrin rəhbəri V.V.Katsan idi. 1941-45-ci illər Böyük Vətən müharibəsinin əvvəlində musiqiçilərin əksəriyyəti cəbhəyə yollandığı üçün orkestr fəaliyyətini müvəqqəti olaraq dayandırdı. Lakin, sonrakı illərdə V.V.Vidder, V.V.İvanov, S.M.Sinitsın, A.Q.Şaqalov kimi istedadlı ifaçıların dəvət olunması ilə orkestr fəaliyyətini bərpa etmişdir. 1946-cı ildə orkestrdə 40 nəfərdən çox ifaçı fəaliyyət göstərirdi*" (Вызго-Иванова, 1973: 202-204).

1950-ci ildə orkestrin tərkibinə 2 bayan və ağac nəfəs alətləri (fleyta və qoboy) daxil edilmiş, 1976-cı ildən isə orkestr genişləndirilərək, bayan, nəfəs alətləri qrupuna (4 bayan, 2 fleyta, qoboy, ingilis nəfiri) və böyük tərkibli zərb alətləri qrupuna malik olmuşdur. Orkestrin repertuarında 5000-dən çox əsər mövcud idi ki, bunların içərisində rus xalq mahnı və rəqslərinin işləmələri, V.V.Andreyevin pyesləri, rus və xarici klassik musiqi əsərlərinin transkripsiyaları, həmçinin rus bəstəkarlarının orijinal əsərləri yer alırdı.

Vyana Filarmoniya Orkestrinin tarixi 1842-ci il martın 28-dən başlayır ki, həmin gün O.Nikolay Xofburq sarayında Vyana Dövlət Opera orkestrinin üzvlərindən ibarət ilk konsert təşkil etmişdir. 1860-cı ildə saray opera kollektivinin rəhbəri Ekert Karl Anton bu ifaçılarla konsert həyatına başlamışdır. 1875-ci ildə Hans Rixterin gəlişi ilə orkestr çiçəklənmə dövrünə qədəm qoymuşdur. Rixter orkestrin tərkibini genişləndirərək, repertuarı R.Vaqner, A.Brukner, İ.Brams, F.Listin əsərləri ilə zənginləşdirmişdir. Orkestrin inkişafında Rixard Ştrausun xüsusi rolu olmuşdur. O, Vyana Opera Teatrında çalışan musiqiçiləri dəvət edərək orkestrin tərkibini genişləndirmiş, mis nəfəs alətləri qrupuna valtornalar, truba, ağac nəfəs alətləri qaboy və alman klarnetini əlavə edərək ifaçıların sayını 120 nəfərə çatdırmışdır. C.Hellsberq qeyd edir: "*Vyana Filarmoniya Orkestrinin heç vaxt bədii rəhbəri olmamış və dirijorlarla uzunmüddətli müqavilələr bağlamamışdır. 1933-cü ilə qədər hər il ümumi səsvermə yolu ilə "abunə dirijoru" seçilirdi. Festivallarda, həmçinin ənənəvi Yeni il konsertlərində və Yay gecəsi konsertində orkestri idarə etmək üçün ayrıca olaraq qastrol dirijorları dəvət olunurdu. Lakin, qastrol dirijorlarından əlavə, Vyana Filarmoniyası ilə daimi əsasda, bəzən onilliklər boyu əməkdaşlıq edən bir neçə dəvətli dirijoru var. Dəvətli dirijorlar arasında Vilhelm Furtvenqler, Karl Böhm, Herbert fon Karayan, Karlo Mariya Culini, Leonard Bernstayn, Georq Şolti, Valeri Gergiyev və b. məşhurlar dirijorlar var idi. Vyana Filarmoniyası öz sevimli dirijorlarına, eləcə də orkestrin ən görkəmli artistlərinə uzunmüddətli və səmərəli əməkdaşlığa görə təşəkkür əlaməti olaraq fəxri "Qızıl üzük" təqdim edir. Bu üzüklə təltif edilmiş dirijorlar*

arasında Karlo Mariya Culini, Bernard Haytink, Pyer Bulezin rolu danılmazdır” (Hellsberg, 1992: 420-422).



Şəkil 3. *Vyana Filarmoniya orkestri*

1940-cı ildə Müzəffər Sarıözənin professional xalq çalğı alətləri orkestrini yaratdıqdan sonra TRT-nin dəstəyi ilə “Yurddan səslər” və “Biz Türkü öyrənirik” kimi verilişlər xalq musiqisinin yayılmasına təkan verdi. Bu təşəbbüslər müasir Türk xalq musiqisi ansambllarının formalaşmasına və xalq çalğı alətlərinin inkişafına mühüm töhfə verdi.

Orkestrlərin tərkibi və alətlər sistemi

Dünya orkestr modellərini müqayisə etmək üçün müxtəlif ölkələrin xalq çalğı alətləri orkestrlərinin tərkibini araşdıraq.

Cədvəl № 1. Asiya və dünya xalq çalğı alətləri orkestri modellərinin müqayisəsi

Ölkə	Milli alətlər	Avropa alətləri	Əsas alətlər qrupu
Azərbaycan	Tar, kamança, qanun, saz, balaban, tütək, zurna, nağara, qoşanağara	Fortepiano, klarnet	Simli, nəfəs, zərb
Özbəkistan	Hicak, dütar, tənbur, ud, nay	İstifadə edilmir	Simli kamanlı, simli mizrablı, nəfəs, zərb
Türkmənistan	Dütar, hicak, tyuduk	Violonçel, alt, kontrabas, fleyta, qoboy, klarnet |	Simli, nəfəs
Qırğızıstan	Komuz, kıyak	Fleyta, qaboy, klarnet, faqot	Simli, nəfəs

Tatarıstan	Kuray, kubız	Qarmon, skripka, qusli, mandolina, domra	Simli, nəfəs
Rusiya	Balalayka, mandolin	Fleyta, qaboy, klarnet, faqot	Simli, nəfəs
Qazaxıstan	Dombra, kobız	Nadir hallarda istifadə olunur	Simli
Türkiyə	Bağlama, davul, karadeniz kamançası	Fleyta, qaboy, klarnet, skripka	Simli, nəfəs, zərb
Bilkent simfonik orkestri	Avropa alətləri	Avropa alətləri	Simli-kamanlı, nəfəs, zərb

Cədvəldən göründüyü kimi, orkestrlərin tərkibi və alət sistemləri ölkədən ölkəyə əhəmiyyətli dərəcədə fərqlənir. Özbəkistan orkestri tərkibinə heç bir Avropa aləti daxil etməməklə ən "təmiz" milli orkestr modelini qoruyub saxlamışdır. Türkmənistan orkestri isə əksinə, daha çox Avropa alətlərini tərkibinə daxil etmişdir. Azərbaycan xalq çalğı alətləri orkestri isə orta mövqe tutur – milli musiqi alətlərinə üstünlük verməklə yanaşı, müasir dövrdə bəzi Avropa alətlərindən də istifadə edir. Şərq orkestrlərində isə repertuarın əsasını xalq musiqisi təşkil edir. Özbəkistan orkestrinin tərkibinə Avropa alətləri daxil edilmədiyi üçün dünya bəstəkarlarının əsərlərini ifa etmək imkanı məhduddur. Azərbaycan xalq çalğı alətləri orkestri isə həm milli, həm də dünya bəstəkarlarının əsərlərini uğurla ifa edir.

Şərq orkestrlərinin inkişafında ən mühüm mərhələlərdən biri not sisteminə keçid olmuşdur. Bu proses müxtəlif ölkələrdə fərqli vaxtlarda baş vermişdir:

– Azərbaycan: 1931-ci ildə Üzeyir Hacıbəyli tərəfindən;
– Türkiyə: 1940-cı ildə Müzəffər Sarıözən tərəfindən;
– Özbəkistan: 1937-ci ildə N.M.Mironov tərəfindən;
– Qırğızıstan: 1936-cı ildə P.F.Şubin tərəfindən;
– Qazaxıstan: 1934-cü ildə Ə.K.Jubanov tərəfindən;

Deməli, Azərbaycanda ilk notlu xalq çalğı alətləri orkestri digər ölkələrlə müqayisədə bir-neçə il əvvəl yaranmış və Şərqin ilk notlu xalq çalğı alətləri sayılan bu model əsasında digər ölkələrdə xalq çalğı alətləri orkestrləri formalaşmışdır. Not sisteminə keçid orkestrlərə çoxsəsli musiqini ifa etmək imkanı vermiş, repertuarın genişlənməsinə səbəb olmuşdur.

Səid Rüstəmov Azərbaycanda ilk notlu xalq çalğı alətləri orkestrinin uzun müddətli dirijoru kimi milli dirijorluq sənətinin formalaşmasında mühüm rol oynamışdır. O, orkestrin repertuarını zənginləşdirmiş, ifaçılıq səviyyəsini yüksəldərək Azərbaycan musiqi mədəniyyətinin inkişafına mühüm töhfə vermişdir. Professor E.Abbasova yazır: "*Orkestr 1 may 1931-ci ildə Azərbaycan bəstəkarlıq məktəbinin banisi, dahi Üzeyir Hacıbəylinin rəhbərliyi və Müslüm Maqomayevin*

təşəbbüsü ilə təşkil edilmişdir. Şərqdə simfonik orkestr prinsipi ilə yaradılmış ilk xalq çalğı alətləri orkestri olan bu kollektiv Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında əhəmiyyətli rol oynamışdır. Orkestrin ilk tərkibi tar, kamança, balaban, dəf və nağaradan ibarət olmuşdur. Lakin, sonrakı illərdə Səid Rüstəmovun rəhbərliyi ilə orkestrin tərkibinə tütək, zurna, qoşanağara, dəf, qanun və ud daxil edilmişdir. Səid Rüstəmov xalq çalğı alətləri orkestrinin tərkibində milli alətlərin üstünlük təşkil etməsini dəstəkləyir, Avropa alətlərinin orkestrin milli səslənməsinə xələl gətirə biləcəyini iddia edirdi” (Abasova E, 1975: 48-49). 2000-ci ildə Azərbaycanda daha bir xalq çalğı alətləri orkestri – F.Əmirov adına Əməkdar kollektiv yaradılmışdır. Yarandığı gündən orkestr bir çox dövlət əhəmiyyətli tədbirlərdə çıxışlar etmiş, beynəlxalq festivallarda uğurlar qazanmışdır. Belə ki, 2004, 2005 və 2010-cu illərdə İranda keçirilən ənənəvi “Fəcr” Beynəlxalq musiqi festivallarında “Qızıl Çəng” mükafatına layiq görülmüşdür. Belarusiya, Moldova, Tacikistan, Ukraynada keçirilən mədəniyyət günlərində tamaşaçıların böyük rəğbətini qazanmışdır. Bir çox xarici ölkələrdə qastrol səfərlərində olmuşdur.

Rusiyada V.V.Andreyev adına xalq çalğı alətləri orkestrinə müxtəlif dövrlərdə N.M.Selitski, S.V.Yeltsin, A.V.Mixaylov, A.Y.Aleksandrov, Q.A.Doniyax, V.P.Popov kimi görkəmli dirijorlar rəhbərlik etmişdir. Orkestrlə həmçinin D.İ.Poxitonov, E.P.Qrikurov, K.İ.Eliasberq, L.Stokovski kimi dünya şöhrətli dirijorlar çalışmışdır. Vyanada Hans Rixter, Qustav Maler, Rixard Ştraus, Feliks Vaynqartner, Vilhelm Furtvenqler kimi dirijorlar Vyana Filarmoniya Orkestrinin inkişafında mühüm rol oynamışdır. Rixard Ştrausun rəhbərliyi dövründə (1906-1944) orkestr dünyanın 1 nömrəli orkestri adına layiq görülmüşdür.



Şəkil 4. *V.V.Andreyev adına xalq çalğı alətləri orkestri*

Orkestrlərin qastrol fəaliyyətinin müqayisəsini təqdim edək:

Cədvəl № 2. Dünya və Asiya ölkələrinin orkestrlərin qastrol fəaliyyəti

Ölkə	XX əsr	XXI əsr
Azərbaycan	Rusiya, Gürcüstan, Türkdilli dövlətlər	Dünyanın bir çox ölkələri
Türkiyə	Əsasən Türkdilli dövlətlər	Şərq ölkələri, Azərbaycan
Özbəkistan	Rusiya, Tacikistan, Tatarıstan, Koreya, Azərbaycan	Ölkədaxili, Şərq ölkələri, Rusiya
Türkmənistan	Rusiya, Tacikistan, Tatarıstan, Koreya, Azərbaycan	Rusiya, Şərq ölkələrində
Qırğızıstan	Rusiya, Türkdilli dövlətlər	Rusiya, Şərq ölkələrində
Qazaxıstan	Rusiya, Türkdilli dövlətlər, Çin	Dünya ölkələri
Rusiya	SSRİ şəhərləri, dünya ölkələri	Dünya ölkələri
Vyana Filarmoniya	Paris, dünya ölkələri	Dünyanın bütün ölkələri, o cümlədən Azərbaycan ölkələri
Bilkent Simfonik orkestri	Dünya ölkələri	Dünya ölkələri

Özbəkistan xalq çalğı alətləri orkestrinin beynəlxalq fəaliyyəti xüsusilə maraqlıdır. Orkestr 1965-ci ildə Tacikistanda konsert verərək özbək bəstəkarı Yudakovun bəstələdiyi Tacikistan Respublikasının Dövlət himnini ifa etmişdir. Rus musiqişünası İ.Dzerjinski bu hadisəni "böyük bir yenilik" adlandırmışdır. Orkestr həmçinin Tatarıstanda keçirilən "Mahnı İncəsənəti" müsabiqəsində özbək bəstəkarı Y.Şerfendirovun tatar folkloru əsasında bəstələdiyi mahnıları, 1971-ci ildə Koreyada keçirilən Mahnı Ongünlüyündə isə özbək bəstəkarı Rak Endinin koreya mövzusunda bəstələdiyi əsərləri ifa etmişdir.



Şəkil 5. *Özbəkistan xalq çalğı alətləri orkestri*

Müasir dövrdə orkestrlərin fəaliyyəti

Azərbaycanda Səid Rüstəmov və Fikrət Əmirov adına xalq çalğı alətləri orkestrləri bu gün də fəaliyyət göstərir. Bu orkestrlərin konsert proqramı olduqca geniş olub, repertuara müxtəlif janrlı əsərlər daxildir. Son illərdə orkestrlərdə xarici ölkə bəstəkarlarının əsərlərinə üstünlük verilərək, bu əsərlər milli musiqimizlə sintez şəklində təqdim olunur ki, bu da dinləyicilər tərəfindən uğurla qarşılanır.

Özbəkistan xalq çalğı alətləri orkestrinin tərkibində Avropa alətləri iştirak etmir və bu qərar orkestrin yarandığı ilk dövrlərdə qəbul edilmiş və hazırda da qüvvədədir. Türkmənistanda P.Sarıyev adına Türkmənistan xalq çalğı alətləri orkestri Filarmoniyanın nəzdində müasir dövrümüzə kimi fəaliyyət göstərir. Lakin tədqiqatlar göstərir ki, türkmən xalqının musiqi mədəniyyətinin çox zəngin və qədim bir tarixə malik olmasına baxmayaraq, milli musiqi alətlərinin təkmilləşdirilməsi sahəsində mühüm addımlar atılmamışdır. Qazaxıstanda Kurmanqazı adına Qazaxıstan xalq çalğı alətləri orkestri müasir dövrümüzdə də ölkənin mədəni həyatında fəal iştirak edir.

Vyana Ştraus Festival Orkestri hazırda dünyanın ən məşhur orkestrlərindən biridir. Hər il yanvar ayının 1-də məşhur Vyana bal festivalı bu orkestrin iştirakı ilə açılır. Orkestrin konsert cədvəli bir-neçə il əvvəlcədən tərtib edilir, Yeni il axşamı konserti 70 telekanal, 300 radiodalğa və 50 milyon insan tərəfindən izlənilir. Vyana Ştraus festival orkestri dəfələrlə ölkəmizdə də konsert-qastrol səfərində olmuş, maraqlı çıxışlarla dinləyicilərin rəğbətini qazanmışdır. 2014, 2016, 2018-ci illərdə Bakıda Heydər Əliyev Mərkəzində Peter Qutun rəhbərliyi ilə Vyana Ştraus Festival Orkestrinin konserti keçirilmişdir. Konsertdən əvvəl Peter Qut Heydər Əliyev Mərkəzində artıq dördüncü dəfə çıxış etməkdən məmnunluğunu bildirib. O, proqramda dünya şöhrətli avstriyalı bəstəkar, “valsın kralı” İohann Ştrausun, həmçinin digər Vyana klassiklərinin: İohann Ştraus, Yozef Lanner, Robert Stolz, Yozef Ştraus, Eduard Ştraus və Karl Mixael Tsirerin əsərlərinin yer aldığını diqqətə çatdırıb. Peter Qut Ştraus dövrünün ənənələrinə sadiq qalaraq konsert zamanı həm violində ifa edib, həm də dirijorluq edib. Məşhur əsərlərin yüksək peşəkarlıqla təqdim olunduğu, tamaşaçılarla səmimi ünsiyyət şəraitində keçən konsert maraqla qarşılanıb.

Orkestr modellərinin tipologiyası

Aparılan təhlil nəticəsində dünya orkestr modellərini üç əsas tipə bölmək olar:

1. Tamamilə milli model (Özbəkistan tipi): Bu modeldə orkestrin tərkibinə heç bir Avropa aləti daxil edilmir. Üstünlük yalnız milli alətlərə verilir. Bu modelin üstünlüyü milli koloritin maksimum dərəcədə qorunmasıdır. Çatışmazlığı isə dünya klassikasının əsərlərini ifa etmək imkanının məhdud olmasıdır.

2. Sintez modeli (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tatarıstan tipi): Bu modeldə milli alətlərlə yanaşı, bəzi Avropa alətləri də orkestrin tərkibinə daxil edilir. Bu, həm milli musiqinin, həm də dünya bəstəkarlarının klassik əsərlərini ifa etməyə imkan verir. Lakin, düşünürük ki, Avropa alətlərinin milli musiqinin

səslənmə ahənginə mənfi təsir etməməsi üçün diqqətli olmaq, yalnız ehtiyac yarandıqda Avropa alətlərindən istifadə etmək lazımdır.

3. Avropa simfonik modeli (Vyana tipi): Bu modeldə orkestrin tərkibi tamamilə Avropa alətlərindən ibarətdir. Repertuarın əsasını dünya bəstəkarlarının klassik əsərləri təşkil edir. Xalq musiqisi bu modeldə demək olar ki, yer almır.

Orkestr modellərinin inkişafına təsir edən əsas amillər:

1. Sovet hakimiyyəti dövründə Orta Asiya və Qafqaz xalqlarının musiqi mədəniyyətinin inkişafına dövlət səviyyəsində diqqət yetirilmişdir. Bu dövrdə konservatoriyalar, filarmoniyalar, musiqi məktəbləri açılmış, xalq çalğı alətləri orkestrləri yaradılmışdır.

2. Hər bir ölkənin xalq çalğı alətləri orkestrinin inkişafında orkestrin rəhbərinin rolu böyük olmuşdur. Azərbaycanda Üzeyir Hacıbəyli və Səid Rüstəmov, Özbəkistanda N.M.Mironov, Qazaxıstanda Ə.K.Jubanov, Qırğızıstanda P.F.Şubin, Vyanada H.Rixter və R.Ştraus bu orkestrlərin formalaşmasında və inkişafında həlledici rol oynamışlar.

3. Hər bir xalqın musiqi ənənələri orkestr modelinin formalaşmasında mühüm rol oynamışdır. Məsələn, Özbəkistanda milli alətlərə daha çox üstünlük verilməsi bu ölkənin zəngin musiqi ənənələri ilə bağlıdır.

Bütün orkestr modelləri müasir dövrdə müəyyən çağırışlarla üzləşir:

1. Dünya musiqisinin qloballaşması orkestrlərin repertuar siyasətinə təsir edir. Xalq çalğı alətləri orkestrləri dünya musiqisi ilə rəqabət aparmağa məcburdurlar.

2. Xalq çalğı alətlərində peşəkar ifaçıların hazırlanması mühüm problem olaraq qalır. Bu sahədə təhsilin inkişaf etdirilməsi vacibdir.

3. Müasir dinləyicinin tələblərinə cavab verən yeni repertuarın yaradılması zərurəti vardır. Bu, həm milli bəstəkarların, həm də dünya bəstəkarlarının yeni əsərlərinin orkestr repertuarına daxil edilməsini tələb edir.

Bilkent Simfonik Orkestri 1993-cü ildə Bilkent Universitetinin özəl layihəsi əsasında qurularaq, Türkiyənin ilk akademik və beynəlxalq orkestri xüsusiyyətini daşıyır. Hal-hazırda orkestrin 120 nəfərdən çox üzvü var ki, onların əksəriyyətini Bilkent Universitetinin Musiqi sənətləri fakültəsinin müəllim heyəti təşkil edir. Arif Möhsünoğlu vurğulayır: "*Bilkent Simfonik Orkestri çoxsaylı festivallarda uğurlu çıxışlar etmişdir. Orkestrin konsert proqramları klassik əsərlərlə yanaşı xalq musiqi üzərində qurulmuşdur. Qastrol səfərlərində orkestrin müşayiəti ilə vokal ifaçıları Pekin Qırğız və Hakan Aysev klassik ariyalar səsləndirirdilər. Bariton-Məsud İktu isə Adnan Sayqunun xalq mahnılarını simfonik orkestrin müşayiəti ilə ifa etmişdir. Beləliklə, orkestr təkcə klassik musiqini ifa etməklə kifayətlənmir, eyni zamanda orijinal xalq musiqisini də yerli dinləyicilərinə təqdim edir ki, bu da Bilkent Simfonik Orkestrinin təkcə klassik musiqini deyil, həm də xalq musiqisi mədəniyyətini təmsil etdiyini göstərir*" (Möhsünoğlu A, 2017: 1105-1117).

Orkestr hər il dünyanın müxtəlif ölkələrində 50-dən çox konsert proqramları ilə çıxış edir.

1. Hər iki model (Bilkent və Şərq xalq orkestrləri) milli musiqi mədəniyyətinin inkişafında və təbliğində mühüm rol oynayır;

2. Bilkent orkestri dünya klassiklərinin əsərləri ilə yanaşı Türk bəstəkarlarının əsərlərini (Türk Bestecileri Haftası çərçivəsində) səsləndirməklə, milli musiqinin qorunmasına töhfə verir;

3. Beynəlxalq qastrol fəaliyyəti bütün bu orkestrlər üçün xarakterikdir.

Bilkent Simfonik Orkestri tamamilə Avropa alətlərindən ibarət olan klassik simfonik orkestr modelini təmsil edir. Bu baxımdan o, Vyana modeli ilə eyni tipə aiddir. Lakin təhlil edilən Şərq xalq çalğı alətləri orkestrlərindən əsaslı şəkildə fərqlənir. Bilkent orkestri özəl və akademik təşəbbüs kimi yaradılmışdır. Şərq xalq orkestrləri isə əsasən dövlət dəstəyi ilə (filarmoniyalar, radio komitələri nəzdində) formalaşmışdır. Vyana Filarmoniyası isə tarixən opera orkestrindən yaranmışdır.

Bilkent orkestrinin repertuarının əsasını dünya klassik musiqisi təşkil edir (Mosart, Bethoven, Rixard Ştraus, Maler və s.). Bu baxımdan Bilkent modeli Vyana modelinə daha yaxındır. Şərq xalq çalğı alətləri orkestrlərində isə repertuarın əsasını milli xalq musiqisi təşkil edir. Bilkent orkestri 12 fərqli ölkədən gəlmiş musiqiçiləri özündə birləşdirən beynəlxalq tərkibə malikdir. Vyana Filarmoniyası əsasən Avropa musiqiçilərindən, Şərq orkestrləri isə əsasən yerli milli kadrlardan ibarətdir.

Bilkent orkestri 40-dan çox CD buraxmış, EMI, CPO kimi məşhur səsyazma şirkətləri ilə əməkdaşlıq etmişdir. 2009-cu ildə UNICEF Türkiyə İyi Niyət Elçisi elan edilmişdir. Bu göstəricilərə görə Bilkent orkestri Vyana modelinə yaxınlaşır.



Şəkil 6. *Bilkent simfonik orkestri*

Nəticə:

Aparılan müqayisəli təhlillər göstərir ki, hər bir ölkənin orkestri özünəməxsus xüsusiyyətlərə malikdir və bu xüsusiyyətlər həmin ölkənin musiqi ənənələri,

tarixi inkişaf yolu və mədəni siyasəti ilə bağlıdır. Azərbaycan xalq çalğı alətləri orkestri sintez modelinin ən uğurlu nümunələrindən biridir. Bu orkestr həm milli musiqi ənənələrinin qorunmasına, həm də dünya musiqi irsinin mənimsənilməsinə imkan verir. Üzeyir Hacıbəyli və Səid Rüstəmovun rəhbərliyi ilə formalaşan orkestr bu gün də öz fəaliyyətini davam etdirir. Özbəkistan xalq çalğı alətləri orkestri milli orkestr modelinin ən bariz nümunəsidir. Orkestrin tərkibinə heç bir Avropa alətinin daxil edilməməsi milli koloritin maksimum dərəcədə qorunmasına imkan versə də, dünya klassik nümunələrini ifa etmək imkanını məhdudlaşdırır.

Türkmənistan xalq çalğı alətləri orkestrinin tərkibinə avropa alətləri daxil edilmiş, lakin milli alətlərin təkmilləşdirilməsi sahəsində kifayət qədər iş aparılmamışdır. Vyana orkestri Avropa simfonik orkestr modelinin ən yüksək nailiyyətidir. Bu orkestr əsrlər boyu formalaşaraq, dünya musiqi mədəniyyətinin inkişafına böyük təsir göstərmişdir. Müqayisəli təhlil göstərir ki, orkestrlərin inkişafı üçün ən optimal yol sintez modelidir – milli ənənələri qoruyub saxlamaqla yanaşı, dünya təcrübəsindən bəhrələnmək. Azərbaycan bu yolda mühüm uğurlar əldə etmiş və bu gün də bu istiqamətdə inkişaf edir. Bilkent Simfonik Orkestri Avropa simfonik orkestri ilə eyni kateqoriyaya aid olub, tamamilə Avropa alətlərindən ibarət, repertuarının əsasını dünya klassik musiqisi təşkil edən peşəkar simfonik orkestrdir. Lakin, onun özəl və akademik təhsil müəssisəsi nəzdində yaradılması, həmçinin Türk bəstəkarlarının əsərlərinə xüsusi diqqət yetirməsi kimi özünəməxsus xüsusiyyətləri vardır. Şərq xalq çalğı alətləri orkestrlərindən fərqli olaraq, Bilkent orkestri milli musiqinin qorunması və təbliği məqsədini sintez modeli ilə deyil, müasir simfonik orkestr vasitəsilə həyata keçirir. Bu, onun təhlil edilən digər orkestr modelləri arasında özünəməxsus yerini müəyyən edir. Araşdırmalar göstərir ki, orkestr modellərinin inkişafında əsas meyar milli ənənələrlə dünya təcrübəsinin vəhdətidir. Azərbaycan xalq çalğı alətləri orkestri sintez strategiyasının ən uğurlu nümunəsi kimi həm milli koloriti qoruyur, həm də dünya klassik musiqisini mənimsədir.

ƏDƏBİYYAT:

1. Hacıbəyov Ü.Ə. Azərbaycan musiqi tərəqqisi // "Elmi əsərlər". II cild. Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının nəşriyyatı, 1965, s. 223-230.
2. Möhsünoğlu A. Bilkent senfoni orkestrasının Türkiye'nin müzik hayatındaki rolü // "Abant İzzet Baysal Üniversitesi Eğitim Fakültesi Dergisi", 17(4), 2017, s. 1105-1117.
3. Вызго-Иванова И. Новые пути жанра // "Советская Музыка", 1973, № 2, с. 202-204.
4. Гизатов Б. Казахстанский Государственный оркестр народных инструментов имени Курмангазы. Алма-Ата: Казгослитиздат, 1957, 60 с.
5. Hellsberg C. Demokratie der Könige: Die Geschichte der Wiener Philharmoniker. Mainz: Schott, 1992, 688 p. ISBN 978-3795702366.